

# Ali Baş Komandan kimi ön səngərdə, Prezident kimi daim xalqın yanında

## Dövlət başçısı İlham Əliyevin cəbhə bölgəsinə səfəri əsgərlərimizin döyüş ruhunu daha da artırdı

Mayın 1-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar. Tərtər rayonundakı "N" saylı hərbi hissənin şəxsi heyəti ilə görüşən Ali Baş Komandan təmas xəttində baş verən son hadisələrdən danışıb.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan bu vəziyyətlə heç vaxt barışmayacaq. Hazırda təmas xəttində üstünlüyün tamamilə Azərbaycan tərəfində olduğunu və döyüş mövqelərimizin daha da möhkəmləndiyini deyən dövlət başçısı Azərbaycanın ordu quruculuğu ilə bağlı əvvəlcədən gördüyü hərtərəfli tədbirlərin özünü doğrultduğunu vurğulayıb. Tərtərdə və Ağdam rayonunun qoşunların təmas xəttində yerləşən Mahrızlı kəndində sakinlərlə görüşən dövlət başçısı düşmənlə üzbəüz mövqelərdə yerləşən yaşayış məntəqələrinin sakinlərinin fədakarlıqlarını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğulayıb və bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirib. Prezident həmçinin dağılmış evlərin, sosial obyektlərin tezliklə bərpa olunacağını bildirib.

Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə birgə cəbhə bölgəsinə səfəri ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib və dünyanın aparıcı media qurumlarının əsas mövzularına çevrilib. Siyasətçilər isə hesab edirlər ki, Ali Baş Komandan bu addımı ilə həm döyüş ruhu yüksələn əsgərlərimizin gücünə güc qatdı, həm də evləri dağılmasına baxmayaraq, düşmənlə üz-üzə dayanan vətəndaşlarımızın daim dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut etdi.

Milli Məclisdə Ağdam şəhərini təmsil edən deputat **Bəxtiyar Əliyev** qəzetimizə açıqlamasında vurğuladı ki, Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın təmas xəttində vəziyyətin gərgin olduğu bir zamanda, Ermənistan tərəfindən intensiv olaraq mövqelərimizin atəşə tutulduğu bir vaxtda ora getməsi, düşmənlə üzbəüz mövqelərə yaxın məsafədə yerləşən yaşayış məntəqələrində olması dövlət başçısının öz xalqına, Vətənə olan sevgi və məhəbbətinin göstəricisidir: "Bu, bir daha onu göstərdi ki, cənab Prezident xalqın taleyini hər şeydən üstün tutur, hər bir vətəndaşın yanındadır və düşməndən çəkinəcək yeri yoxdur. Eyni zamanda dövlət başçısı onu göstərdi ki, Ali Baş Komandan kimi ön səngərdəki əsgərlə, Prezident kimi düşmənlə üz-üzə yaşayan sadə vətəndaşlarla birlikdədir. Dövlət və onun güclü ordusu daim bu insanların mühafizəsindədir və bir qarış da olsun Azərbaycan torpağı Ermənistana qəti surətdə verilməyəcək. Burada güclü siyasi iradə və haqq var. Ədalət bizim tərəfimizdədir. Bir sözlə, bu hadisə cənab İlham Əliyevin əsl Ali Baş Komandan olduğunu bir daha təsdiqlədi".

Deputatın sözlərinə görə, dövlət başçısı cəbhə bölgəsinə etdiyi səfərlə ağır zərbə almış düşmənə bir daha qalib Ali Baş Komandan olduğunu xatırladıb. Əsgərlərlə görüşdə isə bir daha bəyan edib ki, Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq.

Parlamentdə Şuşa-Ağdam-Xocalı-Xocavəndi təmsil edən deputat **Elman Məmmədov** qəzetimizə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin cəbhə bölgəsinə səfəri və yerli sakinlərlə görüşü ilk olaraq dövlət başçısının daima hər bir Azərbaycan vətəndaşının yanında olduğunu sübut etdi: "Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın cəbhə xəttində erməni vandalizmindən ziyan çəkən, evləri dağıdılan ailələrlə görüşü, erməni təxribatları zamanı xəsarət alan mülki şəxslərə baş çəkməsi məndə qürur hissi doğurdu. Çünki o insanlar bir daha əmin oldular ki, dövlət onların yanındadır, arxasındadır. Yerli sakinlər də bunu bilirlər və bu səbəbdən də evləri düşmən mərmisi tərəfindən dağıdılsa da yurdlarını tərk etmirlər. Bu da düşmənə göz dağı verir".

Elman Məmmədov dedi ki, bu səfər həm də erməni ilə üz-üzə dayanan, mərdliklə mübarizə aparan və onlara ciddi itkilər yaşadan Milli Ordumuzun əhvali-ruhiyyəsinin artmasına, mənəvi üstünlüyümüzün daha da yüksəlməsinə zəmin yaratmış oldu: "Hər bir Azərbaycan əsgəri bu gün fəxarət hissi ilə Vətənə qulluq edir. Ali Baş Komandanın onlara baş çəkməsi isə döyüş ruhlarını daha da artırır. Bu fəaliyyət ölkə Prezidentinin siyasətinin, idarəçiliyinin tərkib hissəsidir. Cənab Prezidentin həm də Ali Baş Komandan kimi cəbhədə olması əsgərlərimizə, zabitlərimizə böyük ruh yüksəkliyi verdi və onların torpaqlarımızın tezliklə işğaldan azad olunmasına inamını artırdı".

Deputatın fikrincə, aprelin əvvəllərində Milli Ordumuzun düşmən üzərindəki zəfərindən sonra Ali Baş Komandanın bu addımı Azərbaycan xalqında birlik, mübarizlik əhvali-ruhiyyəsini daha da yüksəltdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***